*Neft sektoruna iri miqyaslı investisiyaların nəticəsində hasilatın başlanması ilə davam edəcək mütəəssiredici iqticadi inkişaf fonunda inflyasiyanın yüksəlməsi makroiqtisadi mühitdəki əsas həssaslığı üzə çıxartdı. Bununla belə, hökumət bu uğurlu vəziyyətdən bəhrələnərək daha uzun müddət ərzində güclü iqtisadi fəaliyyəti davamlı edəcək və rifah halını yüksəldəcək lazımi struktur dəyişiklikləri həyata keçirməlidir.*

## 2004-cü ilin makroiqtisadi cəhətdən qiymətləndirilməsi

Son beş ildəki 10.7%-lik orta illik yüksəlişə uyğun olaraq ÜDM 2004-cü ildə 10.2% artmışdır. Neft və qaz sektoruna-konkret olaraq Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinə, Azəri-Çıraq-Günəşli (AÇG) neft yataqlarına və Şah Dəniz qaz yatağına və kəmərinə xarici kapital qoyuluşlarının artması-ümumi nəticə üçün stimul yaratmışdır. Sənayedə yüksəliş 12.2% olaraq ÜDM artımının 62%-ini təşkil etmış, tikinti təxminən 42% genişlənmişdir. Tikinti neft sektoruna qoyulan investisiyalardan, eləcə də paytaxtda tikinti sahəsində baş verən bumdan və xarıcdən maliyyələşdirilən infrastruktur layihələrindən bəhrələnmiş və son 3 il ərzində onun miqyası 4 dəfədən çox artmışdır. Ümumi iş yerlərinin təxminən 40 %-i payına düşməklə işə götürən sector kimi kənd təsərrüfatının mühüm rola malik olmasına baxmayaraq- onun 4.6%-lik artımı ÜDM-un ümumi artımına yalnız 5.9 % töhfə vermişdir. Xidmətlər 7.7% genişlənərək əsas etibarı ilə rabitə və ticarətdəki yüksəlişi əks etdirir.

2004-cü ildə rəsmi işsizlik səviyyəsi 1.5% təşkil edərək aşağı olmuşdur, ancaq bu rəqəmə yalnız işsizliyə görə müavinət almaq üçün qeydiyyatdan keçmiş insanlar daxildir. 2003-cü ildə Dövlət Statistika Komitəsi işçi güvvəsinə dair tədqiqat aparmışdır (beynəlxalq standartlara əsaslanmaqla) ki, həmin tədqiqat işsizlik səviyyəsinin 10.7% təşkil etdiyini və işsizliyin kənd yerlərindəkinə nisbətən şəhər yerlərində iki dəfə artıq olduğunu (7.0 %-ə qarşı 14.0%) göstərmişdir. Qadınlar arasında işsizlik kişilər arasında olduğundan daha yüksəkdir (9.6 %-ə qarşı 12.2%).

Ev təsərrüfatlarının büdcəsinə dair 2002-ci ildə keçirilmiş son sorğunun rəqəmləri göstərir ki, ərzaq və qeyri-ərzaq malları üzrə minimum istehlak ehtiyaclarının adambaşına 175 000 manat (36 ABŞ dol) təşkil etməsinə əsaslanmaqla əhalinin təxminən yarısı yoxsulluq içərisində yaşayır. Şəhər yerlərində yoxsulluq səviyyəsi kənd yerlərindəkinə nisbətən daha yüksəkdir; bu tipik olmayan nəticə ondan irəli gəlir ki, daxili məcburi köçkünlərin düşərgələri şəhər yerlərində yerləşir.

Hökumət 2004-cü ildə düşünülmüş fiskal siyasət aparmaqda davam etmişdir. Gəlirlər və qrantlar ÜDM-un 25.0%-ini təşkil etməklə vəsaitlərin əsas mənbəyi ƏDV olmuşdur.Hökumətin xərcləri ÜDM-un 27.0%-inə çatmışdır ki, bunun səbəbi qismən əmək haqqı və enerji subsidiyalarının artması ilə bağlıdır. ÜDM-un 2.0%-i həcmində olan ümumi kəsir 2003-cü ildəkindən bir qədər aşağı olmuşdur. Xırda kəsirlər milli borc səviyyələrini aşağı səviyyədə saxlasa da, qısa müddətli qiymətli kağızların məhdud miqdarda buraxılması pul kütləsinin idarə edilməsində çətinliklər yaratmışdır.

Baxmayaraq ki, 2004-cü ildə neftin dünya qiymətlərinin yüksək olması iqtisadi artıma və fiskal vəziyyətə müsbət təsir göstərmişdir, qiymətlərin sabitliyinə zərər vurulmuşdur. Azərbaycan Milli Bankının (AMB) valyuta kursunun nominal olaraq bahalaşmasının qarşısını almaq cəhdləri qiymətli kağızlar bazarının zəif olması ilə birlikdə xarici aktivlərin sterilizasiya edilməmiş şəkildə toplanmasına və pul kütləsinin sürətlə genişlənməsinə aparıb çıxarmışdır. Baxmayaraq ki, likvidliyin absorbsiyası (udulması) üçün AMB avqust ayında öz qiymətli kağızlarını buraxmağa başladı, pul kütləsinin geniş göstəricisinin il ərzində 47.5 % sıçrayışı baş vermişdir. Bundan başqa, bəzi idarə olunan qiymətlərdə artım – hər şeydən əvvəl yanacağın pərakəndə

qiymətlərində -inflyasiyanı daha da gücləndirmişdir.Dekabr ayında istehlak qiymətləri 2003-cü ilin sonundakından 10.5% yüksək olmuş və 2004-cü ildə orta illik inflyasiya 6.7%-ə çatmışdır (Diaqram 2.21). Baxmayaraq ki, dollara qarşı orta mübadilə kursu il ərzində mahiyyət etibarı ilə dəyişilməmiş qalaraq AMB-nın müdaxilə cəhdləri uğurlu olmuşdur, real valyuta kursu inflyasiya differensialı (fərqi) səbəbindən bir qədər bahalalşmışdır.

Neft sektorunun vüsətli inkişafı tədiyə balansında da əks olunmuşdur. Neftin dünya qiymətlərinin yüksək olmasının təkan verməsi ilə ixracat 31.5% artmışdır, belə ki, ixracat səviyyəsi təxminən 3.5 milyard ABŞ dol məbləğində və ya ÜDM-un 40.5%-i həcmində olmuşdur. İnvestisiya fəaliyyəti idxalın 25.2% həcmində sürətli artımına səbəb olmuş və bu onunla nəticələnmişdir ki, idxalın səviyyəsi ÜDM-un 40%-ini təşkil etməklə ixracla eyni səviyyədə olmuşdur. Ticarət hesabı faktiki olaraq tarazlı olsa da, geniş ümumi xidmətlərdəki və gəlir kəsirindəki artım (əsas etibarı ilə neft sektoru ilə bağlı olan) mövcud hesabdakı kəsiri əvvəlki ildəki 28.3%-dən 2004-cü ildə ÜDM-da 30.7%-ə genişləndirmişdir. Son illərdə olduğu kimi, xalis kapital daxil olmaları, əsasən də xarici birbaşa investisiyalar mövcud hesabdakı kəsiri üstələmiş və beynəlxalq ehtiyatlar (o cümlədən neft fondu) 284 mln ABŞ dolları həcmində yüksəlmişdir.

## Makroiqtisadi siyasət sahəsindəki hadisələr

2004-cü ilin noyabr ayında parlament 2005-ci ilin büdcəsini təsdiq etdi ki, bu büdcə neft gəlirlərinin idarə edilməsi üzrə hökumətin uzun-müddətli strategiyası ilə uzlaşan ilk büdcə idi. Həmin strategiya fiskal siyasəti istiqamətləndirmək üçün qeyri-neft kəsirinin dəyişməsinə lazımi şəkildə illik məhdudiyyətlər nəzərdə tutur. Büdcə, öz hesablamalarında neftin dünya qiymətlərinin bir barrel üçün 25 ABŞ dolları proqnozundan istifadə etməklə büdcə kəsirini 579 milyard manat (ÜDM-un 1.2 %-i) səviyyəsində planlaşdırır. Hətta Brent markalı neftə nisbətən Azərbaycan neftinin qiymətindəki güzəşt nəzərə alınmaqla neft qiymətlərinin daha yüksək olacağı güman edilsə, çox ehtimal ki, büdcə kəsiri planlaşdırıldığından az olacaqdır, asılı olmayaraq ki, pərakəndə qiymətlər ölkədaxili neft subsidiyalarının büdcədə nəzərdə tutulan xərcinin artımını məhdudlaşdırmaq üçün uyğunlaşdırılacaq, yoxsa yox.

AMB-nın siyasətində bəyan edilən hədəf, 2004-cü ildə valyuta kursunun idarə olunması üzrə üstünlük təşkil edən işlər istisna olmaqla, inflyasiyadır. İqtisadiyyatın remonetizasiyası son illərdə pul kütləsinin sürətli artımının qiymət səviyyəsinə həddindən artıq təzyiq göstərmədən absorbsiyasına (udulmasına) imkan yaratmışdır. Ancaq 2004-cü ildə inflyasiyanın yenidən baş qaldırması aydın şəkildə göstərir ki, bu "inflyasiyasız" monetar ekspansiyanın hədləri vardır. İnflyasiya hədəflərinə nail olmaq sahəsindəki uğurlar əhalinin yerli valyutanı saxlamaq meylinə təsir etdiyindən milli bankın notlarının buraxılması AMB-a qiymətin sabitliyini saxlamaqda dəyərli bir alət təqdim edir. Neft sektoru tərəfindən yaradılan böyük xarici valyuta axınının idarə olunması orta bir müddət ərzində aparılmalı olan siyasət baxımından ən mühüm bir vəzifədir.

*Cədvəl 2.19 Əsas iqtisadi göstəricilər, Azərbaycan, 2004-2007-ci illər, %-lə*

| Maddə | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| ÜDM-un artımı | 10.2 | 14.5 | 19.0 | 22.0 |
| ÜDİ/ÜDM | 40.0 | 35.0 | 30.0 | 30.0 |
| İnflyasiya (İMQİ)) | 6.7 | 5.5 | 4.5 | 4.0 |
| Pul kütləsinin (M2) artımı | 47.5 | 31.0 | 35.0 | 38.0 |
| Fiskal balans/ÜDM | 2.0 | 1.1 | -1.0 | -1.0 |
| Mall ixracının artımı | 31.5 | 24.5 | 50.5 | 45.5 |
| Mal idxalının artımı | 25.2 | 7.5 | -2.5 | -5.0 |
| Cari hesab/ÜDM | -30.7 | -20.0 | -6.0 | 4.5 |

İMQİ= İstehlak mallarının qiymət indeksi, ÜDİ=Ümumi Daxili İnvestisiya,
QDP=Ümumi Daxili Məhsul.
Mənbələr: Maliyyə Nazirliyi, Azərbayan Milli Bankı, Azərbaycan Respublikası Statistika Komitəsi; Beynəlxalq Valyuta Fondu; əməkdaşların hesablamaları

Hökumət maliyyə sektorunun islahatı sahəsində bir sıra vacib addımlar atmışdır. O, 2004-cü ilin yanvar ayında Bank Sistemi haggında Qanun qəbul etmışdir ki, bu qanun Bazel əsas prinsiplərinə uyğundur. Həmin qanunla hökumət kommersiya banklarında daha yaxşı korporativ idarə etməni stimullaşdırmışdır. Bundan başqa, bu qanun ardıcıl şəkildə yaxşı düşünülmüş tələblər tətbiq etməklə bütün maliyyə təşkilatları üçün bərabər oyun qaydaları yaradır. 2004-cü ilin dekabr ayında Milli Bank haqqında Qanun quvvəyə minmişdir. Bu monetar siyasəti aparmaq üçün AMB-a əhəmiyyətli dərəcədə müstəqillik verir, ancaq həm də nəticələr üçün onu cavabdeh edir. Həmin qanun, həmçinin AMB-nın əməliyyatlarının şəffaflğını yaxşılaşdırmaq üçün tədbirlər nəzərdə tutur.

## 2005-2007-ci illərin görünüşü və orta müddət üçün istiqamətlər

Əsas hərəkətverici qüvvənin neft sektoruna investisiyalardan bu investisiyaların nəticəsi olan istehsal və ixracata dəyişməsi amili nəzərdə tutulmaqla iqtisadiyyatın orta-müddət üçün perspektivləri çox müsbətdir.BTC boru kəməri 2005-ci ilin sentyabr ayında işə düşməlidir. Azəri-Çıraq-Günəşli neft yataqlarının birinci fazası 2005-ci ilin birinci rübündə hasilata başlamışdır.Baxmayaraq ki, BTC ilə bağlı investisiyalar tədricən sona yetməkdədir, Şah Dəniz qaz yatağı və onun borusu və üstəğəl Azəri-Çıraq-Günəşli neft yataqlarının işlənməsi bundan sonrakı investisiya və tikintinin dinamik vəsiyyətdə qalmasını təmin edəcəkdir. Bundan əlavə, hökumət qarşıdan gələn illərdə şərq-qərb və şimal-cənub yol dəhlizlərini tamamilə bərpa etmək niyyətini bəyan etmişdir. Həmçinin, “Holland xəstəliyinin” zərərli təsirlərinin qarşısını almaq məqsədi ilə AMB qeyri-neft sektorunun inkişafına kömək etmək üçün real valyuta kursunun həddindən artıq bahalaşmasına müqavimət göstərməkdə davam edəcəkdir. Buna müvafiq olaraq, 2005-ci ildə ÜDM-un artımının sürətlənərək 14.5%-ə, 2006-cı ildə onun 19.0 %-ə və 2007-ci ildə isə 22.0%-ə qalxacağı gözlənilir.

Orta müddət ərzində hökumətin düşünülmüş fiskal və monetar siyasət yürütməkdə davam edəcəyi gözlənilir. Fiskal siyasət planları neft gəlirlərinin idarə edilməsi üzrə hökumətin uzun-müddətli strategiyasında göstərildiyi kimi, neft sərvətindən davamlı surətdə istifadə edilməsi ilə uzlaşır. Hökumət 2005-ci il üçün qeyri-neft sektoru üzrə kəsiri qeyri-neft sahəsi üzrə ÜDM-un 16.8 %-i səviyyəsində planlaşdırır, bu 2007-ci ildə 18.7%-ə qalxacaqdır. *2005-ci il üçün Asiya İnkişaf Perspektivlərinin* büdcə proqnozlarında bu hədəflərə yetişiləcəyi güman edilir. Neftin dünya qiymətlərinin ciddi şəkildə düşməyəcəyi gözlənilməklə, hətta 2005-ci il üçün planlaşdırılan əmək haqqı və pensiya artımlarını və ambisiyalı dövlət investisiya proqramlarını nəzərə alsaq belə, ümumi kəsirin ÜDM-un 2%-dən aşağı səviyyədə olacağı proqnozları yerinə yetiriləcəkdir.

Neft sektoru üzrə daha iri həcmli xarici valyutanın axını ilə əlaqədar olaraq, AMB qiymət və valyuta kurslarının sabitliyini tarazlaşdırmaqla bağlı ciddı sınaqlara məruz qalacaqdır. AMB 2005-ci ildə inflyasiya səviyyəsini 5% və 2006-2007-ci illərdə 2-3% həcmində planlaşdırır, ancaq valyuta kursu bir qədər bahalaşmadan buna nail olmaq çətin olacaqdır. *2005-ci il üçün Asiya İnkişaf Perspektivləri* 2005-cildə inflyasiya səviyyəsini bir qədər yüksək-5-5% səviyyəsində, 2007-ci ildə isə aşağı düşərək 4.0 % səviyyəsində proqnozlaşdırır.

İnvestisiyalarda və hidrokarbonatların istehsalında baş verən dəyişmələr tədiyə balansının vəziyyətində görünəcəkdir. AÇG neft yataqlarının ilk iki fazasında hasilat başlanacağından ixracatın artımı 2006-cı ildə kəskin surətdə sürətlənəcək və yalnız 2007-ci ildə bir az zəifləyəcəkdir. Bunun əksinə olaraq, idxalın artımı BTC neft kəmərinə investisiya qoyuluşu və

AÇG neft yataqları üzrə işin çox hissəsi bitdiyindən aşağı düşəcəkdir. Şah Dəniz yatağından qaz hasilatı 2006-cı ildə

*Diaqram 2.21. 12 ay ərzində dəyişən orta inflyasiya səviyyəsi, Azərbaycan, Yanvar 2001-Dekabr 2004*




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

başlanacaqdır, bu idxal edilən qazın bir hissəsini əvəz edəcəkdir (və ixracatın artmasına kömək edəcəkdir). Gəlirlər çoxaldıqca istehlak malları idxalının artımı istehsal vasitələrinin idxalındakı azalmanın bir hissəsini kompensasiya edəcəkdir, ancaq bununla belə 2006-2007-ci illərdə ümumi idxalın bir qədər aşağı düşəcəyi proqnozlaşdırılır. Neft gəlirləri ölkəyə daxil olduqca vasitəçilərin gəlirlərinin kənara axınının artacağı faktına baxmayaraq, hazırki hesab 2004-cü ildə ÜDM-un 30.7%-i səviyyəsində olan böyük kəsirdən 2007-ci ildə 4.5 % həcmində vəsait artıqlığına dəyişəcəkdir.

Qeyri-neft sektorunun yüksəlişi struktur islahatları sahəsindəki irəliləyişdən asılıdır.Hətta baxmayaraq ki, həqiqətən rəqabətli olan maliyyə sektorunun yaradılması üçün dövlətə məxsus iki kommersiya banklarında islahatların sürətləndirilməsinə ehtiyac vardır, bu sektorda aparılan siyasətdəki dəyişikliklər başlanğıcdır- diversifikasiyaya malik istehsal bazasını stimullaşdırmaq üçün daha çox iş görmək tələb olunur. İdarəetmə sahəsində islahatlara, o cümlədən 2004-cü ilin yanvar ayında qəbul edilmiş korrupsiya əleyhinə qanunun həyata keçirilməsinə və biznes qurumları üçün bürokratik tələblərin sadələşdirilməsinə ehtiyac vardır. Təqdir edilməli haldır ki, son vaxtlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərin həll edilməsi sahəsindəki danışıqlarda müəyyən müsbət əlamətlər görsənir və bu sahədə konkret irəliləyiş inkişaf perspektivlərini daha da gücləndirərdi.